**Azərbaycan Respublikasının Auditorlar Palatası**

# Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, nəşri və onların şərhlərinin hazırlanmasına dair HESABAT

***Məsul icraçılar:***

| | |
|---|---|
| **Auditorlar Palatası Aparatının rəhbəri** | **Q.Bayramov** |
| **Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri** | **N.Talıbov** |
| **Maliyyə və texniki təminat idarəsinin rəisi** | **V.Rəhimov** |

**Bakı – 2022**

**Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, nəşri və onların şərhlərinin hazırlanmasına dair**

# HESABAT

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi redaktəsi və nəşri" (icra müddəti-oktyabr), 3.2-ci "Beynəlxalq Audit Standartlarının yenilənmiş son versiyasının şərhinin hazırlanması və auditorlara çatdırılması" (icra müddəti-noyabr) 3.3-cü "Beynəlxalq Audit Standartlarının yenilənmiş son versiyasının tətbiqinə dair vebinarın keçirilməsi" (icra müddəti-noyabr) bəndlərinin və Palatanın Sədri tərəfindən 2021-ci il 08 dekabr tarixində təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "2021-ci ili 29 oktyabr tarixli 336/4 saylı qərarının 4-cü bəndinin icrası ilə əlaqədar Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin inglis dilindən Azərbaycan dilinə tərcüməsinə, redaktəsinə, nəşrinə və şərhinə dair Qrafikə" uyğun olaraq 2022-ci il ərzində aşağdakı Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklər ingilis dilindən Azərbaycan dilinə tərcümə olunmuş, redaktə edilmiş və onların şərhi hazırlanmışdır:

1. 250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" BAS;
2. 540 saylı "Uçot qiymətləndirmələrinin, o cümlədən ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi" BAS;
3. "Auditin keyfiyyət konsepsiyası;
4. 220 saylı "Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət" BAS;
5. 1 saylı "Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi" İSQM;
6. 2 saylı "Keyfiyyətin idarə edilməsi standartı. Tapşırığın keyfiyyətinin təhlili" İSQM;
7. 4400 saylı (düzəliş edilmiş) "Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart. Razılaşdırılmış prosedurlar üzrə tapşırıqlar".

**250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" Beynəlxalq Audit Standartı barədə**

250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" Beynəlxalq Audit Standartı maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması ilə bağlı auditorun məsuliyyətindən bəhs edir. Bu BAS auditorun konkret qanun və qaydalara riayət edilməsini ayrı-ayrılıqda yoxlamaq və hesabat vermək üçün cəlb olunduğu digər təsdiqləmə tapşırıqlarına şamil edilmir.

250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" Beynəlxalq Audit Standartı tətbiqində auditorun məqsədləri aşağıdakılardır:

(a) Maliyyə hesabatlarında əhəmiyyətli məbləğlərin müəyyən edilməsinə və məlumatların açıqlanmasına bilavasitə təsir göstərməsi ümumi qəbul olunmuş qanun və qaydaların müddəalarına riayətetmə ilə bağlı yetərli müvafiq audit sübutları əldə etmək

(b) Maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə bilən digər qanun və qaydaların tələblərinə riayətetməmə hallarını aşkar etməyə kömək edən qeyd edilən audit prosedurlarını yerinə yetirmək; habelə

(c) Audit zamanı qanun və qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə hallarına müvafiq cavab tədbirləri görmək.

250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" Beynəlxalq Audit Standartı 15 dekabr 2017-ci il tarixindən tez başlamayan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün etibarlıdır.

Bu standart 16 bölmədən və 36 səhifədən ibarətdir.

**540 saylı "Uçot qiymətləndirmələrinin, o cümlədən ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi" BAS**

540 saylı "Uçot qiymətləndirmələrinin, o cümlədən ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi" Beynəlxalq Audit Standartında maliyyə hesabatlarının auditində uçot qiymətləndirmələri və digər açıqlamalar ilə əlaqəli auditorun məsuliyyətlərindən bəhs edilir. Xüsusən, bu BAS 315 saylı (düzəliş edilmiş) BAS1 , 330 saylı BAS2 , 450 saylı BAS3 , 500 saylı BAS4 və digər müvafiq BAS-ların uçot qiymətləndirmələri və əlaqəli açıqlamalara dair necə tətbiq olunacağına aid olan və ya tətbiq olunacağını ətraflı izah edən tələb və təlimatları ehtiva edir. O, həmçinin, uçot qiymətləndirmələri və əlaqəli açıqlamaların təhrifləri və rəhbərliyin mümkün olan qeyriobyektivliyinin əlamətlərinin qiymətləndirilməsi üzrə tələb və təlimatları əhatə edir.

540 saylı “Uçot qiymətləndirmələrinin, o cümlədən ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” Beynəlxalq Audit Standartının tətbiqində auditorun məqsədi maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində uçot qiymətləndirmələrinin və maliyyə hesabatlarındakı əlaqəli açıqlamaların əsaslandırılmış olub-olmamasına dair yetərli müvafiq audit sübutları əldə etməkdir

540 saylı “Uçot qiymətləndirmələrinin, o cümlədən ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” Beynəlxalq Audit Standartı 15 dekabr 2019-cu il tarixindən tez olmayaraq başlanan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün etibarlıdır.

Bu standart 26 bölmədən və 152 səhifədən ibarətdir.

**”Auditin keyfiyyət konsepsiyası”**

”Auditin keyfiyyət konsepsiyası”nın tələblərinə əsasən maliyyə məlumatları istifadəçilərin ehtiyaclarını ödəmək üçün müvafiq, vaxtlı və etibarlı olmalıdır. Milli qanunlar və qaydalar, eləcə də müəssisənin maraqlı tərəfləri istifadəçilərə məlumatın etibar edilə biləcəyinə inam yaratmaq üçün çox vaxt maliyyə məlumatlarının bəzi elementlərinin kənar auditini tələb edir. Kənar auditin məqsədinə nail olunması üçün auditi aparılmış maliyyə hesabatlarının istifadəçiləri auditorun müvafiq standarta uyğun işlədiyindən və keyfiyyətli audit apardığından əmin olmalıdırlar.

“Auditin keyfiyyəti” termini tez-tez maraqlı tərəflər arasında müzakirələrdə, tənzimləyici orqanlara, standart təyin edən orqanlara, auditor təşkilatlarına və digərlərinə məlumatvermələrdə, araşdırmalarda və siyasətin qurulmasında istifadə olunur. Auditin keyfiyyəti mürəkkəb mövzudur və Əlavə 1-də qeyd olunduğu kimi, onun hamılıqla qəbul edilmiş tərifi və ya təhlili yoxdur.

Bu səbəbdən Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası (IAASB) maliyyə hesabatlarının auditi üçün tapşırıq, auditor təşkilatı və milli səviyyələrdə auditin keyfiyyətinə töhfə verən ilkin parametrlər, proses və nəticə amillərini təsvir edən Auditin Keyfiyyət Konsepsiyasını (Konsepsiya) işləyib hazırlamışdır. Konsepsiya həmçinin maraqlı tərəflər arasında müvafiq qarşılıqlı əlaqələrin vacibliyini və müxtəlif kontekstual amillərin əhəmiyyətini nümayiş etdirir.

Auditin keyfiyyət konsepsiyası”nın məqsədlərinə aşağıdakılar daxildir:

- Auditin keyfiyyətinin əsas elementləri haqqında məlumatlılığın artırılması.
- Əsas maraqlı tərəflərin auditin keyfiyyətinin yaxşılaşdırılması yollarını araşdırmağa həvəsləndirilməsi.

- Bu mövzu üzrə əsas maraqlı tərəflər arasında aparılan dialoqun genişləndirilməsi.

IAASB ümid edir ki, Konsepsiya müzakirələrin yaranmasına və auditin keyfiyyətinin davamlı təkmilləşdirilməsinə nail olmaq üçün müsbət tədbirlərin görülməsinə səbəb olacaqdır.

Auditorlardan auditor təşkilatları daxilində müvafiq audit standartlarına və keyfiyyətə nəzarət standartlarına, həmçinin etik normalara və digər normativ tələblərə riayət etmək tələb olunur. Konsepsiya bu cür standartları əvəz etmir, əlavə standartlar müəyyən etmir və ya audit tapşırıqlarının yerinə yetirilməsi üçün tələbləri təmin etmir.

Bu konsepsiya 6 bölmədən və 55 səhifədən ibarətdir.

**220 saylı "Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət" BAS**

220 saylı "Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət" Beynəlxalq Audit Standartı maliyyə hesabatlarının auditi üçün tapşırıq səviyyəsində keyfiyyətin idarə edilməsi ilə bağlı auditorun xüsusi məsuliyyətlərini və tapşırıq üzrə tərəfdaşın müvafiq öhdəliklərini müəyyən edir. Bu BAS müvafiq etik normalarla birlikdə oxunmalıdır. (İst: Paraq. A1, A38)

220 saylı "Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət" Beynəlxalq Audit Standartının tətbiqində auditorun məqsədi aşağıdakı tələblərə cavab verən keyfiyyət səviyyəsini təmin etmək məqsədilə ağlabatan əminlik əldə etmək üçün tapşırıq səviyyəsində keyfiyyəti idarə etməkdir: (a) Auditor öz məsuliyyətlərini yerinə yetirmiş və auditi peşə standartlarının və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun olaraq aparmışdır; habelə (b) Təqdim edilmiş auditor hesabatı şəraitə uyğundur.

220 saylı "Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət" Beynəlxalq Audit Standartı 15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlanan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün etibarlıdır.

Bu standart 16 bölmədən və 32 səhifədən ibarətdir.

## 1 saylı “Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi” İSQM

1 saylı “Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi” Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı (BKİS) maliyyə hesabatlarının auditi və ya təhlili, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqlar üçün keyfiyyət idarəetmə sisteminin hazırlanması, tətbiqi və idarə olunmasına görə şirkətin məsuliyyətlərindən bəhs edir.

Tapşırığın keyfiyyətinin təhlili şirkətin keyfiyyət idarəetmə sisteminin bir hissəsini təşkil edir və:

(a) Bu BKİS, tapşırığın keyfiyyətinin təhlili tələb olunan tapşırıqları əhatə edən siyasət və ya prosedurların müəyyən edilməsi üzrə şirkətin məsuliyyətindən bəhs edir.

2 saylı BKİS tapşırığın keyfiyyətinin nəzarəti üzrə müşahidəçi-ekspertin təyin edilməsi və uyğunluğu, tapşırığın keyfiyyətinin təhlilinin icrası və sənədləşdirilməsindən bəhs edir.

Beynəlxalq audit və təsdiqləmə standartları şurasının (IAASB) digər standartları:

(b) Şirkətin BKİS-lərə və ya ən azı onlar qədər sərt olan milli tələblərə tabe olması əsasında tərtib edilmişdir; habelə

(c) Tapşırıq səviyyəsində keyfiyyətin idarə edilməsi ilə bağlı tapşırıq üzrə tərəfdaşlar və tapşırıq qrupunun digər üzvləri üçün tələbləri ehtiva edir. Məsələn, 220 saylı (düzəliş edilmiş) BAS maliyyə hesabatlarının auditi üçün tapşırıq səviyyəsində keyfiyyətin idarə edilməsi ilə bağlı auditorun xüsusi məsuliyyətlərini və tapşırıq üzrə tərəfdaşın əlaqəli məsuliyyətlərini müəyyən edir. (İst: Paraq. A1)

1 saylı “Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi” BKİS müvafiq etik normalar ilə birlikdə oxunmalıdır. Qanun, qayda və ya müvafiq etik normalar şirkətin keyfiyyətin idarə edilməsi üçün bu BKİS-də təsvir olunanlardan kənar məsuliyyətlər müəyyən edə bilər. (İst: Paraq. A2)

Bu BKİS maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən bütün şirkətlərə şamil olunur (yəni, şirkət bu tapşırıqlardan hər hansı birini yerinə yetirildiyi halda, bu BKİS tətbiq edilir və bu BKİS-in tələblərinə uyğun olaraq yaradılmış keyfiyyət idarəetmə sistemi şirkətin bütün bu cür tapşırıqları ardıcıl şəkildə yerinə yetirməsinə imkan verir).

1 saylı “Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi” Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının tətbiqində şirkətin məqsədi maliyyə hesabatlarının auditi və ya təhlili, yaxud şirkətin yerinə yetirdiyi digər təsdiqləmə və ya əlaqəli xidmət tapşırıqları üçün keyfiyyət idarəetmə sistemini hazırlamaq, tətbiq etmək və idarə etməkdir ki, bu da şirkəti ağlabatan əminliklə təmin edir:

(a) Şirkət və onun heyəti öz məsuliyyətlərini peşə standartlarına və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun həyata keçirir və tapşırıqları bu cür standartlara və tələblərə uyğun yerinə yetirirlər; habelə

(b) Şirkət və ya tapşırıq üzrə tərəfdaşların təqdim etdikləri tapşırığa dair hesabatlar müvafiq şəraitə uyğundur.

Tapşırıqların ardıcıl olaraq keyfiyyətlə yerinə yetirilməsi ictimai maraqlara xidmət edir. Keyfiyyət idarəetmə sisteminin hazırlanması, tətbiqi və idarə olunması şirkətə 14(a) və (b) paraqraflarında qeyd olunan keyfiyyət idarəetmə sisteminin məqsədlərinə nail olunmasına dair ağlabatan əminlik verməklə tapşırıqların ardıcıl olaraq keyfiyyətlə yerinə yetirilməsinə imkan verir. Tapşırıqların keyfiyyətlə yerinə yetirilməsi peşə standartlarına və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun olaraq tapşırıqları planlaşdırmaq və yerinə yetirmək və onlar haqqında hesabat verməklə əldə edilir. Həmin standartların məqsədlərinə nailolma və qüvvədə olan qanun və ya qaydaların tələblərinə riayətetmə peşəkar mühakimənin yürüdülməsini və tapşırığın növünə aid olduqda, peşəkar inamsızlığın tətbiq edilməsini ehtiva edir.

Bu BKİS-ə uyğun keyfiyyət idarəetmə sistemləri 15 dekabr 2022-ci il tarixinədək hazırlanmalı və tətbiq edilməli və bu BKİS-in 53-54-cü paraqraflarına uyğun olaraq tələb olunan keyfiyyət idarəetmə sisteminin qiymətləndirilməsi 15 dekabr 2022-ci il tarixindən sonra bir il ərzində həyata keçirilməlidir.

Bu standart 38 bölmədən və 69 səhifədən ibarətdir.

## 2 saylı “Keyfiyyətin idarə edilməsi standartı. Tapşırığın keyfiyyətinin təhlili” İSQM

2 saylı “Keyfiyyətin idarə edilməsi standartı. Tapşırığın keyfiyyətinin təhlili” Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı (BKİS) aşağıdakılardan bəhs edir:

(d) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin edilməsi və meyarlara uyğunluğu; habelə

(e) Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi və sənədləşdirilməsi ilə əlaqəli tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin məsuliyyətləri.

2 saylı "Keyfiyyətin idarə edilməsi standartı. Tapşırığın keyfiyyətinin təhlili" BKİS, 1 saylı BKİS-ə uyğun olaraq tapşırığın keyfiyyətinin yoxlanılması tələb olunan bütün tapşırıqlara tətbiq edilir. Bu BKİS müvafiq etik tələblərlə birlikdə oxunmalıdır.

2 saylı "Keyfiyyətin idarə edilməsi standartı. Tapşırığın keyfiyyətinin təhlili" BKİS-ə uyğun olaraq yerinə yetirilən tapşırığın keyfiyyətinin təhlili 1 saylı BKİS-ə uyğun olaraq şirkət tərəfindən hazırlanan və həyata keçirilən müəyyən edilmiş cavab tədbiridir. Tapşırığın keyfiyyətinin təhlili şirkətin adından tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən tapşırıq səviyyəsində yerinə yetirilir.

Bu BKİS-ə əsasən tələb olunan tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin prosedurlarının xüsusiyyəti, müddəti və həcmi tapşırığın və ya müəssisənin xüsusiyyətindən və şərtlərindən asılı olaraq dəyişir. Məsələn, tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin prosedurları, çox ehtimal ki, tapşırıq qrupu tərəfindən daha az əhəmiyyətli mühakimələrin yürüdüldüyü tapşırıqlar üçün çox geniş olmayacaqdır.

2 saylı "Keyfiyyətin idarə edilməsi standartı. Tapşırığın keyfiyyətinin təhlili" Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının tətbiqində şirkətin məqsədi, meyarlara cavab verən tapşırığın keyfiyyəti üzrə müşahidəçi-eksperti təyin etməklə tapşırıq qrupu tərəfindən yürüdülən əhəmiyyətli mühakimələrin və onlarla bağlı əldə edilmiş nəticələrin obyektiv qiymətləndirilməsini həyata keçirməkdir.

Bu BKİS aşağıdakılar üçün etibarlıdır:

(a) 15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi və təhlili; habelə

(b) 15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlayan digər təsdiqləmə və əlaqəli xidmətlər ilə bağlı tapşırıqlar.

2 saylı "Keyfiyyətin idarə edilməsi standartı. Tapşırığın keyfiyyətinin təhlili" Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı 13 bölmədən və 18 səhifədən ibarətdir.

## 4400 saylı (düzəliş edilmiş) "Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart. Razılaşdırılmış prosedurlar üzrə tapşırıqlar" BAS

4400 saylı (düzəliş edilmiş) "Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart. Razılaşdırılmış prosedurlar üzrə tapşırıqlar" Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart (ƏXBS) aşağıdakıları müəyyən edir:

(a) Razılaşdırılmış prosedurlar üzrə tapşırığı yerinə yetirmək üçün işə cəlb edildikdə mütəxəssispraktikin məsuliyyətlərini; habelə

(b) Razılaşdırılmış prosedurlar üzrə hesabatın formasını və məzmununu. 2. Bu ƏXBS tapşırıqların maliyyə və ya qeyri-maliyyə xarakterli yoxlama predmetləri ilə bağlı razılaşdırılmış prosedurlar üzrə tapşırıqların yerinə yetirilməsinə tətbiq edilir. (İst: Paraq. A1–A2)

Razılaşdırılmış prosedurlar üzrə tapşırıqda, mütəxəssis-praktik, tapşırıq verən tərəf yerinə yetirilən prosedurların tapşırığın məqsədinə uyğun olduğunu etiraf etdiyi hallarda tapşırıq verən tərəflə razılaşdırdığı prosedurları yerinə yetirir. Mütəxəssis-praktik yerinə yetirilən razılaşdırılmış prosedurlar və əlaqəli nəticələr haqqında razılaşdırılmış prosedurlar üzrə hesabatda məlumat verir. Tapşırıq verən tərəf və digər nəzərdə tutulan istifadəçilər mütəxəssis-praktik tərəfindən hesabatda bildirilən razılaşdırılmış prosedurları və nəticələrini özü nəzərdən keçirir və mütəxəssis-praktikin yerinə yetirdiyi işdən öz nəticələrini çıxarır.

4400 saylı (düzəliş edilmiş) “Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart. Razılaşdırılmış prosedurlar üzrə tapşırıqlar” ƏXBS-ə uyğun olaraq razılaşdırılmış prosedurlar üzrə tapşırıqda mütəxəssis-praktikin məqsədləri aşağıdakılardır: (a) Yerinə yetiriləcək prosedurları tapşırıq verən tərəflə razılaşdırmaq; (b) Razılşadırılmış prosedurları yerinə yetirmək; habelə (c) Yerinə yetirilmiş prosedurlar və əlaqəli nəticələr haqqında bu ƏXBS-in tələblərinə uyğun olaraq məlumat vermək.

4400 saylı (düzəliş edilmiş) “Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart. Razılaşdırılmış prosedurlar üzrə tapşırıqlar” ƏXBS, onun tələblərinin müəyyən edildiyi konteksti təmin edən ƏXBS-ə riayət etmək ilə bağlı mütəxəssis-praktikin məqsədlərini ehtiva edir. Məqsədlər razılaşdırılmış prosedurlar üzrə tapşırıqda nəyin yerinə yetirilməli olduğunu başa düşməkdə mütəxəssis-praktikə kömək etmək üçün nəzərdə tutulmuşdur.

4400 saylı (düzəliş edilmiş) “Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart. Razılaşdırılmış prosedurlar üzrə tapşırıqlar” ƏXBS, tapşırığın şərtləri 1 yanvar 2022-ci il tarixindən tez olmayaraq razılaşdırılan prosedurlar üzrə tapşırıqlar üçün qüvvədədir. (İst: Paraq. A9)

Bu standart 30 bölmədən və 30 səhifədən ibarətdir.

Yuxarıda qeyd olunan Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin ingilis dilindən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş tam

mətnləri, eyni zamanda  onların şərhlərinin mətnləri Auditorlar Palatasının internet səhifəsində və Auditorun şəxsi kabeneti sistemində yerləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, keyfiyyətə nəzarətlə bağlı iki yeni standartın hazırlanmasını və digər standartlara əlavə və dəyişikliklər edilməsini bu sahələr üzrə son dövrlərdə bütövlükdə BAS-lara edilən əlavələrə uyğunlaşmaların edilməsi standartların tətbiq sahələrinin özlərinin prosedur qaydalarının təkmilləşdirilməsi və bütövlükdə auditin təşkili və  tənzimlənməsi sahəsində son dövrlərdə əldə olunmuş irəliləyişlər zəruri etmişdir.

Həmin Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərə dair hazırlanmış şərhləri auditorlara çatdırılmaq məqsdilə auditorların ixtisasartırma kurslarında 2022-ci ilin  1,3,5 sentyabr və 4,5,6 oktyabr tarixlərində seminarlar N.Talıbov tərəfindən keçirilmişdir.

Beynəlxalq Audit Standartlarının redaktə olunmasına məsul şəxslər:

Q.Bayramov, N.Talıbov, V.Rəhimov, şərhlərin hazırlanmasına isə məsul şəxslər: N.Talıbov və V.Rəhimov olmuşlar.